

# Şuşada Zəfər seçkisi

**İnsanlar kimi ölkələrin, şəhərlərin, kəndlərin də taleyi olur. Sıldırım qayalar üzərində, dağlarla əhatə edilmiş, təbiətin möcüzəsi, göz yaşı kimi dumduru buz bulaqlarla zəngin olan Qarabağın incisi, Azərbaycanın göz bəbəyi Şuşa şəhəri də keşməkeşli bir tale yaşayıb. Dəfələrlə düşmən hücumuna məruz qalıb, tapdanıb, işğal altına düşüb, amma heç vaxt vüqarını itirməyib, qürurunu sındırmayıb bu dağlar gözəli.**









Dağdan və gözəllikdən söz düşmüşkən. Şuşanın dağlarında yetişən, gözəlliyi ilə göz qamaşdıran xarıbülbülün vətəni mənəvi gücümüzün, ruhumuzun simvoludur. Relyefinə görə ucalarda bərqərar olan bu şəhər erməni tapdağında olanda əlimiz çatmasa da gözümüz, könlümüz oralarda dolaşırdı. Düşmən onun sinəsinə yaralar vursa da, özünküləşdirmək istəsə də, biz "bir gün bu həsrət bitəcək, Şuşaya qayıdacağıq" dedik və qayıtdıq, 28 ildən sonra Şuşamıza qovuşduq.

Ötən üç il Şuşada yerli və beynəlxalq tədbirlər keçirildi, şəhər mədəniyyət mərkəzinə çevrildi, "Şuşa ili" elan edildi. Biz bu təntənələrin sevincini yaşadıq, xalq olaraq Şuşaya dikilən gözlərdəki sevgini gördük, bəzi nankorların nifrətini hiss etdik. Amma bitib-tükənməyən vətən eşqimizi Qarabağdan, Şərqi Zəngəzurdan, Şuşadan əsirgəmədik. Zəfər yaşadıq, Qələbə havasını udduq.

Dünən Şuşa daha bir təntənə də yaşadı. Dağlar gözəli bu günü - 7 fevral növbədənkənar prezident seçkisini səbirsizliklə gözləyirdi. Dünən şəhidlərin ruhu şad idi. Sıldırım qayalardan keçərək möcüzələr yaradan Şuşa qazilərinin gözləri gülürdü. Bu günü azərbaycanlılara yaşadan şəhidlərin ruhu qarşısında baş əyən seçicilər həvəslə, sevə-sevə seçki məntəqəsinə yollanırdılar.

Yeri gəlmişkən deyək ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda 26 seçki məntəqəsi fəaliyyət göstərirdi. Növbədənkənar prezident seçkisi 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd Seçki Dairəsinin Şuşa şəhərində təşkil edilən 105 saylı seçki məntəqəsində keçirildi. Məntəqə seçki komissiyasının sədri Səbinə Gözəlovanın dediyinə görə, məntəqə üzrə 1222 seçici qeydə alınmışdı. Müşahidələr göstərdi ki, Şuşada keçirilən seçkidə iştirak edənlərin bayram əhvali-ruhiyyəsi bir ayrı mənzərə idi. Hiss olunurdu ki, işğaldan sonra ilk dəfə Şuşada səs vermək hər kəsin içindən gələn bir duyğu, qəlbinin istəyi idi.

Şuşa şəhər 1 saylı tam orta məktəbin binasında yaradılan məntəqədə səsverməni 13 nəfər yerli müşahidəçi izləyirdi. Onlara məntəqədə seçkiləri normal izləmək üçün hər cür şərait yaradılmışdı. Seçki günü səhhətində problem olduğuna görə məntəqəyə gələ bilməyən seçicilərin səsverməsini təşkil etmək üçün səyyar seçki qutusu da ayrılmışdı.

Şuşada keçirilən seçki bizim üçün bayram, düşmənə gözdağı oldu. Xam xəyallarla yaşayan, revanşist fikirlərə düşən ermənilər gördülər ki, azərbaycanlıların əzmini, iradəsini qıra bilməzlər. Bu seçki böyük Zəfərin növbəti davamı kimi yaddaşlara hopdu.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*